Oktyabr 2015

# PwC Azerbaijan Times

## 5 saylı Buraxılış

***Buraxılışın əsas xəbərləri:***

- **Vergi yoxlamalarının dayandırılması**
- **Gömrük tənzimlənməsinə dəyişikliklər**



Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketing və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2015 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *Vergi yoxlamalarının dayandırılması*

Vergilər Nazirliyinin ən son kollegiya iclasında yoxlamaların dayandırılması haqqında qərar qəbul edilmişdir.

Vergilər naziri Fazil Məmmədov illik dövriyyələri 120 min manatdan aşağı olan və sadələşdirilmiş qaydada vergi ödəyən sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarının və operativ nəzarət tədbirlərinin (əmək müqavilələrinin bağlanmasına və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması istisna olmaqla) keçirilməsinin müvəqqəti dayandırılması haqqında göstəriş vermişdir. Bu 70 minə yaxın vergi ödəyicisini əhatə edəcəkdir. keçirilir.

### *Gömrük tənzimlənməsinə dəyişikliklər*

22 oktyabr 2015-ci il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən "Gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi haqqında" Fərman imzalanmışdır. Fərmana əsasən fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisinə gətirilən istehsal ya kommersiya məqsədləri daşımayan ümumi gömrük dəyəri 10000 ABŞ dolları ekvivalenti məbləğindən (yetkinlik yaşına çatmamış hər bir fiziki şəxsə görə əlavə 2000 ABŞ dolları ekvivalenti məbləğindən) artıq olmayan malların (aksizli mallar, avtonəqliyyat vasitələri və səfər zamanı fiziki şəxsin zəruri ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan əşyalar istisna olmaqla) gömrük ödənişi ödənilmədən gömrük sərhədindən keçirilməsi qərara alınmışdır.